

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 40 (23.202)

26 fevral 2019-cu il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Fevralın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı müşavirə keçirilib.

Dövlətimizin başçısı müşavirədə çıxış edib.

Prezident İlham Əliyev çıxışında deyib ki, 2018-ci il dərin iqtisadi islahatlar ili olub, xüsusilə prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verilib. 2017-ci il isə iqtisadi sabitləşmə ili idi. Bu ilin yanvar ayının yekunlarına nəzər salsaq görərik ki, iqtisadi artım, yəni ümumi daxili məhsulun artımı təxminən 3 faiz təşkil edir. Son 2-3 il ərzində bu ən yüksək göstəricidir və onu göstərir ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcək.

Dövlətimizin başçısı diqqətə çatdırıb ki, bu ilin birinci ayında qeyri-neft sektorunda sənaye istehsalı təxminən 14 faiz artıb. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir, bəlkə də, birincisidir və onu göstərir ki, sənaye istehsalı sahəsində aparılan işlər, qəbul edilmiş qərarlar bu gün real nəticələrə gətirib çıxarır.

Sonra müşavirədə müzakirələr aparılıb.

# Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunan tədbirlər keçirilib



*AMEA Naxçıvan Bölməsində Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunan “Xocalı faciəsi: səbəbləri, nəticələri və dərsləri” mövzusunda elmi konfrans keçirilib.*

Əvvəlcə faciə qurbanlarının və bütövlükdə Vətən uğrunda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə bölmənin sədri, akademik İsmayıl Hacıyev XX əsrin ən dəhşətli soyqırımı olan Xocalı faciəsinin səbəbləri və bu həqiqətlərin dünyaya çatdırılması istiqamətində həyata keçirilən ardıcıl tədbirlərdən danışıb. Bildirib ki, məkrli erməni cəlladları tarixi torpaqlarımız hesabına “böyük Ermənistan” yaratmaq məqsədilə zaman-zaman azərbaycanlılara qarşı qanlı cinayətlər törədib, soydaşlarımızı qətlə yetirib, deportasiyaya məruz qoyub, etnik təmizləmə aparıb, ərazilərimizin bir hissəsini işğal edib. Nəticədə, xalqımız dəfələrlə ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalıb.

İsmayıl Hacıyev ermənilərin Azərbaycan xalqına qarşı yönəltdikləri işğalçılıq və soyqırımı siyasətinin davamı olan Xocalı soyqırımı zamanı törədilən cinayət faktlarını xatırladaraq vurğulayıb ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni cəlladlarının Xocalıya hücumu zamanı azərbaycanlılar xüsusi qəddarlıqla qətlə yetirilib, öldürülənlər arasında yaşlı, qadın və uşaqlar da olub. Mülki əhali itkin düşüb, əsir götürülüb, ailələr büsbütün məhv edilib.

Bölmə sədri bu faciəyə obyektiv qiymət verən ümummilli lider Heydər Əliyev və onun siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin, həmçinin Heydər Əliyev Fondunun Xocalı həqiqətlərinin dünyada tanıdılması istiqamətində fəaliyyətindən danışıb.

Konfransda bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Qədim və orta əsrlər tarixi şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyev “Xocalı faciəsinə gedən yol – faciənin səbəbləri”, həmin institutun elmi işçisi Sevinc Babayeva “Xocalı faciəsi – insanlığa qarşı cinayət, faciənin nəticələri”, Etnoqrafiya şöbəsinin müdiri, dosent Asəf Orucov “Xocalı faciəsində erməni terror təşkilatlarının qəddarlığı”, İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Ədəbiyyatşünaslıq şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımov “Xocalı ağrılı söz yaddaşımız” mövzusunda elmi məruzələrlə çıxış ediblər.

* * *

*Naxçıvan Dövlət Universitetində Xocalı faciəsinin 27-ci ildönümü münasibətilə elmi-praktik konfrans keçirilib.*



Əvvəlcə universitetin İncəsənət fakültəsinin sərgi salonunda faciə qurbanlarının xatirəsinə həsr olunmuş 30-a yaxın rəsm əsərinin nümayiş olunduğu sərgiyə baxış olub. Konfransda soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov çıxış edərək Xocalı soyqırımını Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək qəddar və dəhşətli cinayət adlandırıb. Rektor ölkə başçısı cənab İlham Əliyevin uzaqgörən siyasəti və Azərbaycan xalqının güclü iradəsi nəticəsində bu gün Xocalı soyqırımının dünya ictimaiyyətinə tanıdılması istiqamətində məqsədyönlü addımlar atıldığını bildirib.

Konfransda universitetin Beynəlxalq münasibətlər kafedrasının müəllimi Arzu Abdullayev “Xocalı həqiqətləri: insanlığa qarşı görünməmiş cinayətin tarixi kökləri”, Bədən tərbiyəsi və idman ixtisası üzrə V kurs tələbəsi Əhməd Əhmədov “Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması” mövzularında çıxış edib, “Xocalıya ədalət” kampaniyasının əhəmiyyətini vurğulayıblar.

Qeyd edək ki, Xocalı soyqırımının 27-ci ildönümü ilə əlaqədar ali təhsil ocağında ənənəvi internet aksiya da keçirilib. Dörd saat davam edən aksiyada yerli və xarici tələbələrin iştirakı ilə dünyanın 100-dən çox tanınmış ali məktəbinin elektron ünvanına ingilis, fransız, alman, rus və fars dillərində Xocalı həqiqətlərini əks etdirən məlumatlar göndərilib.

* * *

***Naxçıvan Müəllimlər İnstitutunda “Xocalı soyqırımı bəşəriyyətə qarşı tarixi cinayətdir” mövzusunda keçirilən elmi-praktik konfransda əvvəlcə faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.***



Konfransı giriş sözü ilə Naxçıvan Müəllimlər İnstitutunun rektoru, dosent Elbrus İsayev açaraq bildirib ki, ötən əsrdə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları soyqırımlarla müşayiət olunub, istər 1905-1907-ci illərdə, istərsə də 1918-1920-ci illərdə Azərbaycanın əksər bölgələrində – Bakı, Quba, Şamaxı, Lənkəran, İrəvan, Naxçıvan və digər yerlərdə kütləvi qətllər törədilib.

Qeyd olunub ki, Xocalı faciəsi XX əsrin ən dəhşətli soyqırımı hadisələrindən biridir. Tarixi saxtalaşdırmaqla məşğul olan ermənilər mövcud olmayan, tarixdə baş verməyən qondarma “erməni soyqırımı”nı dünyada təbliğ etməklə özlərini məzlum xalq kimi qələmə verməyə çalışırlar. Amma, əslində, yüz ildən çoxdur ki, özləri xalqımıza qarşı zaman-zaman qətliamlar, soyqırımlar törədiblər. Onların Xocalıda azərbaycanlılara qarşı qəddarcasına törətdikləri soyqırımı isə çox da uzaq olmayan bir dövrdə baş verib və bu soyqırımının canlı şahidləri vardır.

Diqqətə çatdırılıb ki, bu gün dövlətimizin məqsədyönlü fəaliyyəti nəticəsində dünyanın bir çox dövlətləri Xocalı soyqırımını tanıyır. Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar da Xocalı faciəsini soyqırımı aktı olduğunu təsdiqləyirlər.

Konfransda Naxçıvan Müəllimlər İnstitutunun dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov “Xocalı soyqırımı fakt və rəqəmlərlə”, institutun Tələbə Həmkarlar İttifaqı Komitəsinin sədri Günel Məmmədova “Xocalı qurbanları: tarixin yaddaşında yaşayanlar” mövzusunda məruzələrlə çıxış ediblər.

Sonra Xocalı soyqırımına həsr olunmuş videoçarx nümayiş olunub, institutun əməkdaşları bədii kompozisiya ilə çıxış ediblər. Tədbirin sonunda tələbələrin faciəni əks etdirən rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

* * *

*“Naxçıvan” Universitetində “Azərbaycan xalqına qarşı törədilən soyqırımı – Xocalı faciəsi” mövzusunda konfrans keçirilib.*



Əvvəlcə Xocalıda şəhid olan soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Konfransı giriş sözü ilə universitetin rektoru, professor İsmayıl Əliyev açaraq bildirib ki, Xocalı soyqırımı mənfur erməni millətinin Azərbaycan xalqına qarşı həyata keçirdiyi soyqırımı siyasətinin davamıdır. Çıxışda ümummilli lider Heydər Əliyevin Xocalı faciəsinə əsl hüquqi-siyasi qiymət verilməsindəki mühüm xidmətlərindən, soyqırımı haqqında həqiqətlərin dünya ölkələrinə və beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərdən bəhs olunub.

Konfransda universitetin Beynəlxalq münasibətlər kafedrasının müəllimləri Aysel Abbasovanın “XX əsrin sonlarında Azərbaycanda baş verən siyasi hadisələr və Xocalı faciəsinə gedən yol”, Gülçin Ağayevanın “Xocalı faciəsi xalqımıza qarşı törədilən növbəti soyqırımı hadisəsidir”, Həbibə Əliyevanın “Xocalı faciəsinə verilən siyasi və hüquqi qiymət”, nəşriyyatın redaktoru Nuray Əsgərovanın “Xocalı faciəsi xarici mətbuatda” mövzularında çıxışları dinlənilib. Bildirilib ki, bu faciəni törədənlər gec-tez ədalət mühakiməsi qarşısına çıxacaq, törətdikləri dəhşətli cinayətlərə görə cavab verməli olacaqlar.

Sonda Xocalı hadisələrini əks etdirən slayd nümayiş etdirilib.

**Xəbərlər şöbəsi**

# Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları “Qış təlimi – 2019”da yüksək peşəkarlıq nümayiş etdiriblər

*Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları Türkiyə Respublikasının Qars şəhərində keçirilən beynəlxalq “Qış təlimi – 2019”da ölkəmizi layiqincə təmsil ediblər.*



Türkiyə Respublikasının Qars şəhərində beynəlxalq “Qış təlimi – 2019”un yekun mərhələsində Türkiyənin müdafiə naziri Hulusi Akar və digər ölkələrin təmsilçilərinin yer aldığı yüksək səviyyəli qonaqlar günü keçirilib. Əlahiddə Ümumqoşun Ordu komandanı, general-leytenant Kərəm Mustafayev də yüksək səviyyəli qonaqlar günündə iştirak edib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları çətin relyefli ərazilərdə, qarlı, şaxtalı havalarda döyüş əməliyyatlarının aparılması tapşırıqlarını uğurla yerinə yetirərək digər ölkələrin bölmələri ilə qarşılıqlı əlaqədə döyüş atışlarını icra ediblər.

Beynəlxalq hərbi təlimdə iştirak edən hərbi qulluqçularımız xidmət yerlərində təntənəli mərasimlə qarşılanıblar.

Mərasimdə Əlahiddə Ümumqoşun Ordu komandanının müavini, general-mayor Teymur Eyyubov, Türkiyə Silahlı Qüvvələrinin hərbi attaşe aparatının Naxçıvan Muxtar Respublikasındakı nümayəndəsi, polkovnik Yusif Gündoğdu və təlimdə iştirak edən polkovnik Tehran Mənsimov çıxış ediblər. Çıxışlarda bildirilib ki, təlimin bütün mərhələlərində şəxsi heyətin yüksək peşəkarlıq nümayiş etdirməsi hərbi qulluqçularımızın malik olduğu bilik və bacarıqdan, vətənpərvərlik hisslərindən xəbər verir. Ümumilikdə, 16 ölkənin hərbi qulluqçularının müşahidəçi və iştirakçı qismində cəlb edildiyi təlimdə Azərbaycan və Türkiyə hərbçiləri həmişə olduğu kimi, bu dəfə də yüksək peşəkarlıq nümayiş etdiriblər.

Sonda təlimdə iştirak etmiş heyətlə xatirə şəkli çəkdirilib.

**Nəriman NƏCƏFOV**

# Xocalı faciəsi bəşəriyyətə qarşı yönəlmiş cinayətdir

*1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər tərəfindən Xocalıda törədilmiş soyqırımı aktından 27 il ötür. Erməni faşizminin mənfur xislətini göstərən bu kütləvi və amansız soyqırımı aktı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin davamı olmaqla, təkcə azərbaycanlılara yox, bütövlükdə, bəşəriyyətə qarşı yönəlmiş cinayətdir. Əvvəldən planlaşdırılmış əməliyyatın qəddarlığına baxmayaraq, Xocalı sakinləri son anadək özlərini əsl qəhrəman kimi apardı, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilmədilər. Ümummilli liderimiz Heydər Əliyev demişdir:* ***"Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".***

Xocalı soyqırımını törətməkdə ermənilərin əsas məqsədi xalqımızın mübarizə əzmini qırmaq idi. Əsas hədəflərdən biri də Azərbaycan xalqına məxsus olan buradakı mühüm əhəmiyyətli tarixi abidələri məhv etmək, onları yer üzündən silmək idi. Çünki məhz həmin abidələr bu yurdun azərbaycanlılara məxsus olduğunu təsdiq edirdi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal edilən kimi onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan qədim Xocalı nekropolu xüsusi texnika ilə darmadağın edildi. Ermənilər Qarabağda tarixi və mədəni irsimizi özündə yaşadan və Xocalı şəhərinin ətrafında yerləşən abidələri də hədəf seçdilər, o abidələri də dağıntılara məruz qoydular. Bu abidələrin arasında Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid Xocalı kurqanlarının özünəməxsus yeri vardır. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkar olunmuş, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Araşdırmalar zamanı müəyyən edilib ki, Xocalı-Gədəbəy mədəniyyəti eramızdan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Məhz buna görə də Xocalının ərazisi siklopları, kurqanları və digər abidələri ilə Azərbaycanın qədim tarixini yaşadırdı.

Faktlar da sübut edir ki, Xocalının işğal planının həyata keçirilməsinə 1991-ci ildən başlanılmışdı. Həmin ilin oktyabr ayından şəhər blokada vəziyyətinə salınmışdı. Oktyabrın 30-da avtomobil əlaqəsi kəsildiyindən yeganə nəqliyyat vasitəsi olaraq vertolyotdan istifadə edilirdi. Xocalıya sonuncu vertolyot isə 1992-ci il yanvarın 28-də gəlmişdi. Şuşa şəhərinin səmasında mülki vertolyotun ermənilər tərəfindən vurulmasından və 40 nəfərin həlak olmasından sonra bu əlaqə də kəsilmişdi. Yanvarın 2-dən şəhərə elektrik enerjisi verilmirdi. Xocalı ancaq əhalinin və müdafiəçilərin cəsurluğu sayəsində yaşayır və müdafiə olunurdu. Şəhərin müdafiəsi üçün yerli özünümüdafiə dəstəsi təşkil edilmişdi.

Xocalı soyqırımının törədilməsində bir məqsəd də əhəmiyyətli geostrateji mövqeyə sahib olan şəhərə nəzarəti tam ələ almaq idi. Belə ki, bu ərazini zəbt etmədən Dağlıq Qarabağa nəzarət etmək qeyri-mümkün idi. Vaxtilə 7 min əhalisi olan Xocalı Xankəndidən 10 kilometr cənub-şərqdə, Qarabağ dağının silsiləsində və Ağdam-Şuşa, Əsgəran-Xankəndi yollarının üstündə yerləşir. Qarabağdakı yeganə hava limanı da məhz Xocalıda idi. Ermənilərin əsas istəklərindən biri buradakı hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Bu mənada, Xocalı ermənilərin yolu üstündə böyük bir maneəyə çevrilmişdi.

1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevral ayında isə Malıbəyli və Quşçular kəndlərini işğal etdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra Dağlıq Qarabağın ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin hesabına ermənilərin əlinə keçdi. Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmasının səbəbi də bu idi. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Əsas qüvvələr isə Xankəndidə və Əsgəran istiqamətində yerləşdirilmişdi. Canlı qüvvə az olsa da, silah-sursat çatışmasa da, qəhrəman Xocalı döyüşçüləri düşmənə qarşı inadlı mübarizə aparırdılar.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalıda misligörünməmiş soyqırımı törətdilər. Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinləri isə yollarda, meşələrdə pusqu quraraq xüsusi amansızlıqla qətlə yetirdilər. Kütləvi qırğın nəticəsində 613 sakin, o cümlədən 106 qadın, 63 uşaq və 70 qoca öldürülmüş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür. Onlardan 150 nəfərin taleyi hələ də məlum deyil.

Xocalıda baş verənlərin soyqırımı olduğunu həmin dövrdə bir sıra ölkələrin aparıcı kütləvi informasiya vasitələrinin nümayəndələri də təsdiqləmişlər. Bu baxımdan faciə baş verən gün Xankəndidə ezamiyyətdə olmuş Fransanın "Libardion" qəzetinin əməkdaşı Jul Gen Vaynerin qeydləri xüsusi maraq doğurur. Xocalı soyqırımını qorxulu yuxuya bənzədən Vayner jurnalistika ilə məşğul olduğu 25 il ərzində müharibələrin getdiyi çoxsaylı ölkələrdə olduğunu, lakin Xocalı şəhərindəki kimi dəhşətli və tükürpərdici mənzərələrlə rastlaşmadığını yazmışdır. Jurnalist "Libardion" qəzetində çap etdirdiyi "Erməni terrorizminin canlı şahidi oldum" sərlövhəli yazıda Xocalıda baş verənlərin qabaqcadan hazırlanan ssenari olduğunu açıq bəyan etmişdir. Sovet ordusunun 366-cı motoatıcı alayının ermənilərlə birgə Xocalı üzərinə hücumundan bir gün əvvəl Xankəndidə bu alayın qərargahında olan Vayner orada rus polkovniki Zaviqarovun əməliyyata ciddi hazırlaşdığının şahidi olduğunu göstərmişdir. "Hələ Xocalı işğal edilməmişdən bir gün əvvəl 49 azərbaycanlı əsir alınaraq kütləvi şəkildə güllələndi. Batalyon və hərbi hissələrin komandirləri dinc əhalinin məhvinə qərar vermişdilər. Hücumdan bir neçə saat əvvəl 366-cı motoatıcı alayın qərargahında 58 azərbaycanlı qətlə yetirildi. Onların çoxu qadın və uşaqlar idi. Cəsədlərin gömüldüyü quyuların yanından keçmək mümkün deyildi", – deyə müşahidələrini obyektiv şəkildə qeydə almış fransalı jurnalist Xocalıya hücum ərəfəsində Ermənistanın hakimiyyət orqanları rəhbərlərinin də 366-cı motoatıcı alayın qərargahında olduğunu vurğulamışdır.

Həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olan ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənlərin və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmiş, bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə müraciət edərək erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Ulu öndər Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat 17$^{00}$-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Bu gün görkəmli dövlət xadiminin siyasi xətti Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Son illər Xocalı həqiqətlərinin dünyaya tanıdılması, erməni terrorçularının həyata keçirdiyi insanlıq əleyhinə cinayətlərin beynəlxalq miqyasda ifşası sahəsində xeyli iş görülmüş, xarici dillərdə kitablar nəşr olunmuş, Xocalı soyqırımı müxtəlif beynəlxalq tədbirlərdə gündəmə gətirilmiş, bununla bağlı internet saytları yaradılmışdır. Heydər Əliyev Fondu tərəfindən 2008-ci ildə "Xocalıya ədalət" Beynəlxalq İnformasiya və Təşviqat Kampaniyasının təsis edilməsi atılan mühüm addımlardandır. Dövlətimizin başçısının 2014-cü il 13 fevral tarixli "Xocalıya ədalət" kampaniyasının keçirilməsi ilə bağlı tədbirlər haqqında" Sərəncamına əsasən bu tədbirlərin beynəlxalq səviyyədə daha da genişləndirilməsinin qərara alınması Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xüsusi rol oynayır.

Aparılan səmərəli işin nəticəsidir ki, hər dəfə faciənin ildönümündə dünyanın bir çox ölkəsində Xocalı qurbanlarının əziz xatirəsi anılır, mitinqlər, piketlər keçirilir, erməni vəhşiliklərini əks etdirən fotoşəkillər, filmlər, materiallar nümayiş etdirilir. Dünya ölkələrinin nüfuzlu qəzetlərində faciəyə həsr olunmuş məqalələr çap olunur, televiziya və radiolarda verilişlər hazırlanır. Dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər. 2010-cu ildə 57 ölkənin üzv olduğu İslam Əməkdaşlıq Təşkilatı "Xocalıya ədalət" kampaniyasını dəstəkləyən xüsusi qətnamə qəbul etmişdir. Dünyanın 12 ölkəsi, Amerika Birləşmiş Ştatlarının 22 ştatı Xocalı soyqırımını rəsmən tanımışdır.

Bu gün Azərbaycan Ordusu düşmənin çirkin niyyətləri qarşısında ən böyük və keçilməz maneəyə çevrilib. 2016-cı ilin aprel ayında növbəti dəfə atəşkəs rejimini pozan Ermənistanın təxribatına cavab olaraq Azərbaycan Ordusu tərəfindən torpaqlarımızın bir qisminin, 2018-ci ilin may ayında Əlahiddə Ümumqoşun Ordunun əməliyyatı nəticəsində Şərur rayonunun Günnüt kəndinin, Ağbulaq, Qızılqaya, Qaraqaya yüksəkliklərinin, ümumilikdə, 11 min hektar ərazinin işğaldan azad edilməsi də sübut etdi ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaqdır. Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 5 fevral tarixli "Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında"kı Sərəncamında da deyildiyi kimi: ***"2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu torpaqlarımızın bir qismini işğaldan azad etmiş, uğurlu Naxçıvan əməliyyatı ilə 11 min hektar ərazi nəzarətimizə keçmişdir. Ölkəmizin ərazi bütövlüyünü bərpa etmək üçün bizim kifayət qədər hərbi gücümüz, iqtisadi potensialımız və siyasi iradəmiz vardır. Mövcud status-kvo qəbuledilməzdir və Ermənistanın işğalçı qüvvələrinin torpaqlarımızdan çıxarılması tələbi daim gündəmdədir. Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır".***

**"Şərq qapısı"**

## Xocalı faciəsi qurbanları yad edilib

***Fevralın 25-də Məmməd Səid Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Xocalı soyqırımının 27-ci ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə Xocalı soyqırımı qurbanlarının xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası mədəniyyət nazirinin müavini Rəşad Xudiyev bildirib ki, Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, bütün bəşəriyyətə, insanlığa qarşı törədilmiş dəhşətli cinayətdir.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının və tarixi gerçəkliklərin əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib. Bundan əlavə, azərbaycanlılara qarşı zaman-zaman törədilmiş soyqırımı ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Xocalı soyqırımının iyirmi yeddinci ildönümü haqqında" 2019-cu il 5 fevral tarixli Sərəncam imzalayıb.

Qeyd edilib ki, aparılan səmərəli işin nəticəsində dünyanın bir sıra ölkələrində Xocalı soyqırımı ildönümləri qeyd olunub, müxtəlif tədbirlər keçirilib, bu soyqırım faktının tanınması üçün qətnamələr qəbul edilib. Türkiyə, Meksika, Pakistan, Kolumbiya, Peru, Panama, Çex Respublikası, Bosniya və Herseqovina və digər ölkələrin parlamentləri Xocalı soyqırımı ilə bağlı qərar və qətnamələr qəbul ediblər. Bu ölkələrin qəbul etdiyi rəsmi sənədlərdə həm də Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalı pislənilir.

Sonra Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov "Xocalı soyqırımı əsrin faciəsidir", Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Anar Nəbiyev "Xocalı faciəsi – xalqın qan yaddaşı" mövzularında çıxış ediblər.

Tədbirin sonunda sərgiyə baxış olub.

**Əli RZAYEV**

* * *

*Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasında 26 fevral Xocalı faciəsinin 27-ci ildönümü ilə əlaqədar tədbir keçirilib.*



Əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra şuranın sədri Sucaxan Novruzov çıxış edərək bildirib ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni qəsbkarları Dağlıq Qarabağda xüsusi strateji əhəmiyyətə malik olan Xocalı şəhərini yerlə-yeksan edib, dinc əhalini misligörünməmiş amansızlıqla qətlə yetiriblər. O zaman erməni quldurları tərəfindən Xocalıda xalqımıza qarşı törədilən soyqırımı barədə dünya ictimaiyyətinə məlumat verilməyib, faciənin əsl mahiyyətinə aydınlıq gətirilməyib. Yalnız ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə müstəqil Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqdan sonra Xocalı faciəsi kimi qanlı hadisələrin baş verməsinin qarşısına sipər çəkilib. Ulu öndərimizin təşəbbüsü ilə faciəyə siyasi-hüquqi qiymət verilib. Xocalı soyqırımının tanıdılması istiqamətində ardıcıl işlər bu gün də davam etdirilir.

Sonra mövzu ətrafında çıxışlar dinlənilib.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

* * *

Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasında keçirilən tədbir Xocalı soyqırımı qurbanlarının və Azərbaycan torpaqlarının azadlığı uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsinin yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edən kapitan Orxan Seyidov Xocalı faciəsinin soyqırımı aktı olduğunu bildirib, bu faciənin beynəlxalq-hüquqi müstəvidə qiymətləndirilməsi istiqamətində görülən işlərdən danışıb.

Sonra "Naxçıvan" Universitetinin Ümumi tarix kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanov çıxış edərək bildirib ki, erməni millətçiləri tarix boyu xalqımıza qarşı soyqırımı siyasəti həyata keçiriblər. Xocalı faciəsi də bu siyasətin davamıdır.

Şair, yazıçı Əbülfəz Ülvi isə çıxışında ermənilərin törətdikləri Xocalı soyqırımının tanıdılması və unudulmaması üçün qələm sahiblərinin gördükləri işlər barəsində danışıb və faciə qurbanlarının xatirəsinin əbədi yaşayacağını vurğulayıb.

Sonra əsgərlər adından Cəmaləddin Yusifovun çıxışı dinlənilib. O bildirib ki, müstəqilliyimizin ilk illərində torpaqlarımızın işğalı məqsədilə törədilmiş soyqırımı hadisələri heç zaman unudulmayacaq və Azərbaycan əsgərinin şücaəti ilə ərazi bütövlüyümüz təmin olunacaqdır.

Tədbir Xocalı soyqırımı haqqında sənədli filmin nümayişi ilə başa çatıb.

**✍ Pərviz HACILI**

# *Naxçıvan:* uğurlu inkişaf strategiyası yeni mərhələdə



**Müasir dünyamızda qlobal iqtisadi böhranın mənfi təzahürlərinin meydana gəldiyi, tarazlaşma proseslərinin ağrılı keçdiyi bir dövrdə sosial-iqtisadi inkişafa nail olmaq və ya mövcud inkişafın dayanıqlığını təmin etmək yalnız elmi əsaslara söykənən düzgün iqtisadi siyasət nəticəsində mümkündür. Belə bir şəraitdə ölkəmizlə quru yolu ilə birbaşa əlaqəsi olmayan, əlverişsiz geopolitik transformasiyalar nəticəsində ana vətəndən ayrı düşərək blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının daxili resurslar hesabına yüksəlişini inamla davam etdirməsi, yeni-yeni nailiyyətlərə imza atması müstəqil Azərbaycan dövlətinin ən böyük uğurlarından biridir.**

Bütün bunların başlıca səbəbi ulu öndər Heydər Əliyev və Prezident İlham Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının Naxçıvan Muxtar Respublikasında Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla davam etdirilməsidir. Faktlara nəzər yetirdikdə əminlik yaranır ki, muxtar respublikada mövcud olan ictimai-siyasi sabitliyin fonunda davam etdirilən bu siyasət daha böyük uğurlara yol açmaqdadır.

Naxçıvan Muxtar Respublikasında infrastrukturun yenilənməsi, müasir müəssisələrin, yeni iş yerlərinin yaradılması istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi uzunmüddətli və hərtərəfli inkişaf konsepsiyasının reallaşdırılmasına əsaslı töhfələr verib. Bu gün çoxşaxəli iqtisadiyyatın formalaşdırılması istiqamətində məqsədyönlü islahatların aparılması, mühüm əhəmiyyətə malik dövlət proqramlarının reallaşdırılması nəticəsində Naxçıvan sosial-iqtisadi inkişaf baxımından ölkəmizdə liderliyini qorumaqdadır. İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı kimi mühüm tarixi missiyanı yerinə yetirən Naxçıvanda iqtisadi və sosial sahələrin inkişafını təmin etmək üçün tədbirlər ötən 2018-ci il ərzində də davam etdirilib, dinamik inkişaf qorunub saxlanılıb.

İnkişafın ən mühüm göstəricilərindən biri, yəni istər maddi istehsal, istərsə də qeyri-maddi xidmət sahələrində iqtisadi fəaliyyətin son nəticəsini xarakterizə edən amillərdən biri ümumi daxili məhsulun artım həcmidir. Həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, muxtar respublikada sənaye müəssisələri, kənd təsərrüfatı məhsullarının istehsalı, tədarükü, saxlanması, emalı və satışı kompleksləri yaradılıb, bir sıra ərzaq məhsulları üzrə daxili istehsal xeyli artıb. Bütün bu müsbət proseslər ümumi daxili məhsulun artımına səbəb olub. Belə ki, ötən il ümumi daxili məhsul istehsalının həcmi 2 milyard 773 milyon manatdan çox olub. Bu da bir il öncəki müvafiq göstəricini 1,3 faiz üstələyir. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 1,9 faiz artaraq 6101 manatı ötüb.

Bir sıra istehsal sahələrində məhsul istehsalının həcminin artması, investisiya fəallığının güclənməsi, sahibkarlığın stimullaşdırılması və təşəbbüskarlığa geniş meydan verilməsi muxtar respublikanın iqtisadi dayaqlarını xeyli möhkəmləndirib. 2018-ci il ərzində iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabətqabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində mövcud layihələrin icrası davam etdirilib, stimullaşdırıcı tədbirlər həyata keçirilib. Bu sahədə zəruri malların istehsalının təmini muxtar respublikada sənayenin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlayıb. Ötən il ərzində ümumi daxili məhsulun tərkibində ilk yeri 27,4 faizlik payla sənaye sahəsi tutub və maddi istehsalın payı 58,6 faiz təşkil edib.

Muxtar respublikada quruculuq və abadlıq işləri geniş vüsət alıb. Yeni parklar salınır, inzibati binalar, o cümlədən məktəblər, uşaq bağçaları, səhiyyə ocaqları, idman obyektləri, icra nümayəndəlikləri və bələdiyyə binaları, ən modern üslubda, lakin milli və yerli memarlıq xüsusiyyətləri nəzərə alınmaqla yüksək sürətlə və zövqlə inşa edilib vətəndaşların ixtiyarına verilir. Bütün obyektlər müasir kommunikasiya, o cümlədən yüksəksürətli internetlə tam təmin edilib.

Kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi Naxçıvanda əsas prioritet sahələrdəndir. Ekspertlər bu sahələr arasında kənd təsərrüfatının əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, muxtar respublika əhalisinin 70 faizi kəndlərdə yaşayır. Müasir dövrdə ən aktual problemlərdən biri kəndlərdən şəhərlərə köçməyin kütləvi hal almasıdır. Naxçıvanda isə belə bir problem yoxdur. Ticarət və xidmət obyektləri daxil olmaqla hər cür zəruri infrastrukturun yer aldığı nümunəvi kənd mərkəzləri yaradılıb. Habelə kəndlərdə yaşayan əhalinin məşğulluğu təmin edilib. İnsanların kənd təsərrüfatı ilə məşğul olmaları, bol məhsul əldə etmələri üçün lazımi şərait yaradılıb. Yaşayış məntəqələrində müasir infrastrukturun qurulması, ölkəmizdəki ən keyfiyyətli yolların çəkilməsi, qazın, işığın davamlı verilməsi, bütün kəndlərin telefonlaşdırılması, kənddə şəhər rahatlığının ən yüksək səviyyədə təmin olunması insanların torpağa bağlılığını daha da artırıb, kənd təsərrüfatının inkişafını təmin edib.

Bu ilin məhsulu üçün muxtar respublikada 61 min 935 hektar sahədə əkin aparılıb. Bu da 2017-ci ilin məhsulu üçün əkilmiş sahədən 404 hektar çoxdur. Aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə ötən il, ümumilikdə, 5 milyon 818 min manatdan artıq güzəştli kredit verilmişdir. Məhz görülən məqsədyönlü işlərin nəticəsidir ki, ötən il 480 milyon manatdan artıq kənd təsərrüfatı məhsulu istehsal edilmiş, 101 milyon 781 min ABŞ dollarından çox məhsul ixrac olunmuşdur.

Kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq aqrar sektorun digər bölmələrinin inkişafında həlledici rol oynayır. Taxıl öz kaloriliyinə görə insanın ərzaq balansı rasionunun yarısını təşkil edir. Bu sahənin inkişafına qayğı, diqqət göstərmədən bir çox sahələrin inkişafı mümkün deyil. Taxıl istehsalının artırılması blokada vəziyyətində yaşayan Naxçıvan üçün xüsusilə əhəmiyyətlidir. Sevindirici haldır ki, bu sahə muxtar respublikada hər il daha da inkişaf etdirilir, yeni-yeni nailiyyətlər əldə olunur. Ötən dövrdə muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılıb və 2018-ci ilin məhsulu üçün əkilmiş 32 min 483 hektar sahədən 97 min tondan artıq məhsul götürülüb.

Yeri gəlmişkən qeyd edək ki, regionun strateji əhəmiyyətini nəzərə alaraq və təhlükəsizlik mülahizələri rəhbər tutularaq muxtar respublikada əhalini təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə qida təhlükəsizliyi sistemi ən yüksək səviyyədə qurulmuşdur.

Kənd təsərrüfatı istehsalının ixtisaslaşdırılması, eyni zamanda muxtar respublika əhalisinin əkinçilik və heyvandarlıq məhsullarına olan tələbatının ödənilməsinə, idxaldan asılılığın aradan qaldırılmasına və aqrar istehsal məhsullarının ixraca çıxışının təmin olunmasına, eləcə də bu sahədə rəqabətin daha da güclənməsinə şərait yaradır. Ötən il kənd təsərrüfatının əsas sahələrindən olan heyvandarlığın inkişafı istiqamətində tədbirlər davam etdirilib, 17 heyvandarlıq təsərrüfatı yaradılıb, ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 4 milyon 950 min 100 manat həcmində kreditlərin verilməsi təmin olunub.

Muxtar respublikada iqtisadiyyatın bütün sahələrində dövlət öz imkanları hesabına müasir sahibkarlıq subyektlərinin formalaşmasına geniş imkanlar yaradıb, onların öz potensiallarından səmərəli istifadə etmələri üçün əlverişli mühit formalaşdırıb. Naxçıvanda həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlib. Belə ki, ötən il ərzində muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün verilən kreditlərin həcmi 13 milyon 790 min 800 manat təşkil edib. Məhz yerli istehsal sahələrinin inkişafının nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal edilir. Əlamətdar haldır ki, 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların sosial müdafiəsinin gücləndirilməsinə, səmərəli məşğulluğun və özünüməşğulluğun təmin edilməsinə, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə geniş imkanlar yaratmaqdadır. Təkcə ötən il muxtar respublikada 2827 yeni iş yeri açılıb ki, bunun da 2782-si və ya 98,4 faizi daimi iş yerləridir. Bundan əlavə, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyindəki peşə-ixtisas təhsili müəssisələrində 2753 nəfər müxtəlif peşələrə yiyələnib.

Muxtar respublikada aparılan quruculuq-abadlıq işləri, yeni muzeylərin yaradılması, çoxəsrlik tarixi abidələrin bərpası, inkişaf etmiş infrastruktur, mövcud hotellər şəbəkəsi və cinayətkarlığın olduqca aşağı səviyyəsi bölgəni həm də turizm üçün çox cəlbedici bir məkana çevirmişdir. Belə ki, təkcə ötən il Naxçıvana yarım milyona yaxın turist səyahət etmişdir.

Lakin təəssüflər olsun ki, bu gün ölkəmizdə bəzi şəxslər Naxçıvan Muxtar Respublikasının mövcudluğunun məqsədyönlülüyünü şübhə altına almaq, onun hüquqi statusuna kölgə salmaq istiqamətində uğursuz cəhdlər göstərirlər. İddianın biri bundan ibarətdir ki, guya Naxçıvan Muxtar Respublikasının mövcudluğu Azərbaycan Respublikasının unitar dövlət quruluşu ilə bir araya sığmır. Halbuki azacıq tarix bilgisi olan şəxs muxtar respublikanın hansı hərbi-siyasi şərtlər altında formalaşdığını və anklav formada Azərbaycandan aralı düşdüyünü yaxşı bilir. Bələləri anlamırlar ki, muxtar respublikanın hüquqi statusu təkcə Azərbaycan Konstitusiyası ilə müəyyənləşmir. 1921-ci ildə qəbul olunmuş Qars və Moskva müqavilələrinə görə bölgənin statusu həm də beynəlxalq hüququn əhatə dairəsinə daxil olur. Azərbaycan qanunvericiliyinə görə isə beynəlxalq hüququn yerli hüquq normalarına münasibətdə üstünlüyü mövcuddur. Yəni biz istəsək də birtərəfli qaydada bu statusu ləğv edə bilmərik. Ümumiyyətlə, Naxçıvan Muxtar Respublikasına qarşı bu tip cəhdlər hələ Mütəllibov və AXC-Müsavat iqtidarı dönəmində də göstərilirdi. Onlar hətta "prezidentin Naxçıvan üzrə xüsusi nümayəndəsi" kimi qondarma və antikonstitusion vəzifə də icad etmişdilər. Onların Naxçıvana göndərdiyi emissarlar regionda qarışıqlıq yaratmağa çalışır, ictimai-siyasi sabitliyi pozmağa cəhd göstərirdilər. Bununla həm də ulu öndər Heydər Əliyevin Naxçıvanın rəhbəri kimi ölkə miqyasında gündən-günə yüksələn nüfuzuna zərbə vurmaq məqsədi güdürdülər. Buna nail olmadıqda isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Azərbaycan Respublikası Ali Soveti Sədrinin müavini olması müddəasını Konstitusiyadan çıxararaq ümummilli lider Heydər Əliyevin siyasi perspektivinə mane olmağa çalışdılar. Lakin siyasi proseslərin sonrakı inkişafı onları bir daha haqsız çıxardı və xalq onların özlərini hakimiyyətdən süpürüb atdı.

Digər bir əsassız iddia Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin səlahiyyətlərinə yönəlib. Azərbaycan Respublikası Konstitusiyasının 136-cı maddəsinə əsasən Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədridir. Bu konstitusion bir səlahiyyətdir və yalnız referendumla dəyişilə bilər. Halbuki bunu etmək üçün heç bir hüquqi-ictimai zərurət yoxdur.

Prezident cənab İlham Əliyevin xüsusi sərəncamı ilə yaradılan və cənab Vasif Talıbovun birbaşa diqqət və qayğısı ilə maddi-texniki təchizatı gündən-günə güclənən Naxçıvan Əlahiddə Ümumqoşun Ordu bu gün, sözün əsl mənasında, düşmənə gözdağıdır. Bu ordunun təkcə ötən il keçirdiyi əməliyyat nəticəsində minlərlə hektar Vətən torpağı düşmən işğalından azad edildi və hazırda əkin-biçinə yararlı hala gətirilərək bölgə əhalisinin rifahına xidmət edir. Habelə yeni azad edilmiş yüksəkliklərdən Ermənistanın bütün strateji kommunikasiyaları birbaşa zərbə altında qalır və düşməni vahimə içərisində saxlayır. İndi bəzilərinin bu ordunun adına və ya funksiyalarına hər hansı kölgə salmaq cəhdi düşmən dəyirmanına su tökməkdən başqa bir şey deyil. Belə iddialar yalnız təəssüf doğurur və düşünürəm ki, onları əlavə şərh etməyə ehtiyac yoxdur.

Bəziləri hətta Naxçıvan sərhədlərində Azərbaycandan gedən malların niyə gömrükdə yoxlanıldığı sualını da verirlər. Bu şəxslər başa düşmürlər ki, Azərbaycanın Naxçıvanla birbaşa quru əlaqəsi olmadığı üçün tranzit ölkələrin ərazisindən istifadəni zəruri edir. Yad ərazilərdə isə yüklərin içərisinə ən təhlükəli əlavələr edilə bilər. Bu isə Naxçıvanın, onun əhalisinin təhlükəsizliyinə və sağlamlığına qarşı istənilən təxribatı törətmək niyyətində olan bir sıra xarici dövlətləri şirnikləndirə bilər. Düşünürəm ki, belə adi həqiqətləri anlamaq elə də çətin deyil.

Başqa bir həqiqətə uyğun olmayan arqument ondan ibarətdir ki, guya Naxçıvan Muxtar Respublikası əhalisinin rifah halını yüksəltmək üçün bölgə azad iqtisadi zona olmalıdır və deməli, həm də sərhədlərində gömrüksüz ticarət etməlidir. Halbuki Naxçıvanın yuxarıda da sadaladığımız yüksəlişdə olan iqtisadi göstəriciləri belə niyyətlərin tam əsassız olduğunu sübut edir və zəruriliyini ciddi şübhə altına alır. Habelə belə addımlar bölgəyə özü ilə bərabər maliyyə fırıldaqçılarını və müxtəlif kriminal ünsürləri də cəlb edə bilər. Eyni zamanda düşmən dövlətlərin kəşfiyyat orqanlarının bölgədə fəallığı arta və Naxçıvan kimi strateji bir ərazinin təhlükəsizliyi təhdid altına düşə bilər. Belə bir şəraitdə milli-mənəvi dəyərlərimizə vurulacaq zərbəni isə, ümumiyyətlə, heç nə ilə kompensasiya etmək mümkün olmaya bilər. Halbuki Naxçıvan ölkəmizin kriminogen baxımdan ən sabit və cinayətkarlığın ən az baş verdiyi regionudur.

Bir məsələni də vurğulamaq yerinə düşər ki, ölkənin və onun hər hansı bir regionunun inkişafı ilə əlaqədar istənilən vətəndaş öz proqram və layihələrini müvafiq dövlət qurumlarına təqdim edə bilər. Zəruri təhlil və müzakirələrdən sonra təqdim olunmuş layihənin həyat qabiliyyətliliyi və vacibliyi mütləq dəyərləndirilir. Lakin əsaslandırılmamış arqumentləri, ideyaları adda-budda və pərakəndə şəkildə KİV-də müzakirəyə çıxarmaq hesab edirəm ki, nəinki konstruktiv addım deyil, hətta adi populizmdir.

Amma aydın məsələdir ki, xalqımızın və ictimai rəyin tələb və gözləntiləri tamam fərqlidir. Belə ki, Vətənimizin ayrılmaz bir parçası olan Naxçıvan bu gün möhtərəm Prezident cənab İlham Əliyevin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uğurlu idarəçiliyi sayəsində öz intibah dövrünü yaşayır. Naxçıvan əhalisi gələcəyə böyük inamla baxır və bugünkü nailiyyətləri gələcək müvəffəqiyyətlərin təminatı kimi görür.

Təsadüfi deyil ki, dünyanın 70 ölkəsinin 5 mindən artıq şirkət və təşkilatını birləşdirən "Caspian European Club" 2017 və 2018-ci illərdə ölkədə həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən Azərbaycan Respublikası regionlarının illik investisiya reytinqini müəyyənləşdirdiyi zaman Naxçıvan Muxtar Respublikası ən yüksək ümumi bal toplayaraq liderliyə yüksəlib.

Göründüyü kimi, 30 ilə yaxın blokada şəraitində yaşasa da, Naxçıvan Muxtar Respublikası hərtərəfli və dayanıqlı inkişafa nail olub. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev bu barədə deyib: ***"...Naxçıvan uğurla, sürətlə inkişaf edir. Son illər ərzində muxtar respublikada böyük abadlıq-quruculuq işləri görülmüşdür. Naxçıvan Muxtar Respublikası bütün iqtisadi göstəricilərinə görə çox sürətlə inkişaf edən respublikadır. Son 15 il ərzində respublikanın ümumi daxili məhsulu on dəfəyə yaxın artıbdır. Bu, məncə, dünya miqyasında rekord göstəricidir. Bütün uğurlar münasibətilə Naxçıvan Muxtar Respublikasının rəhbərliyini, bütün sakinlərini ürəkdən təbrik etmək istəyirəm".***

Yuxarıda sadalananlar Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafa nail olunmasının göstəriciləri, böyük uzaqgörənliklə müəyyənləşdirilmiş inkişaf strategiyasının nəticələridir. Bu isə muxtar respublikanın şəhər və kəndlərinin simasını köklü şəkildə dəyişdirir. Hazırda Naxçıvanın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın, davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir.

**Siyavuş NOVRUZOV**
***Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini***

***"Azərbaycan" qəzeti 23 fevral 2019-cu il***

## Olimpiada qalibləri mükafatlandırılıb



*Muxtar respublika fənn olimpiadasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, dövlətimizin hərtərəfli diqqət və qayğısı ilə təhsil müəssisələrinin maddi-tədris bazası daha da möhkəmləndirilib, tədris prosesi günün tələbləri səviyyəsində qurulub. Fənn kabinələri, fizika, kimya, biologiya laboratoriyaları zəruri avadanlıqlarla təmin olunub. Bütün bunlar isə təhsilin səviyyəsinin yüksəldilməsinə geniş imkanlar açır. İstedadı və yaradıcı təfəkkürü ilə seçilən şagirdləri aşkar etmək istiqamətində də müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər sırasında hər il muxtar respublikada keçirilən fənn olimpiadaları mühüm əhəmiyyət kəsb edir.

Diqqətə çatdırılıb ki, olimpiadaların keçirilməsində məqsəd xüsusi istedadlı uşaqların üzə çıxarılması, şagirdlərdə fənlərə olan marağın artırılması, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrinə və peşə seçiminə hazırlanmasına zəmin yaradılmasından ibarətdir. Məktəblilərin muxtar respublika fənn olimpiadalarının keçirilməsi onların respublika fənn olimpiadalarına hazırlığında və yüksək nəticələr qazanmağında mühüm əhəmiyyətə malikdir. Fənn olimpiadalarının yekunlarına görə şagirdlərin əldə etdikləri nəticələr müvafiq fənn müəllimlərinin, eləcə də məktəbin fəaliyyətinin qiymətləndirilməsində əsas meyarlardan biri kimi nəzərə alınır.

Nazir qeyd edib ki, məktəblilərin muxtar respublika fənn olimpiadası iki mərhələdə keçirilib. IX-XI sinif şagirdləri arasında Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix, coğrafiya fənləri üzrə olimpiadanın I şəhər və rayon mərhələsində 545 şagird öz biliyini sınayıb, onlardan 191-i yüksək nəticə göstərərək final mərhələsində iştirak etmək hüququ qazanıb. Nəticələrə əsasən fevralın 12-də keçirilən olimpiadanın final mərhələsində, ümumilikdə, 51 şagird I, II və III yerlərin qalibi olub.

Sonda təhsil naziri Rəhman Məmmədov bilik yarışında fərqlənən şagirdləri təbrik edib, qaliblərə diplom və oxunması zəruri olan kitablar təqdim olunub. Tədbirdə şagirdlərlə yanaşı, ən yaxşı nəticə göstərən məktəblər də mükafatlandırılıb. Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey muxtar respublika fənn olimpiadasında ən yaxşı nəticə göstərən təhsil müəssisəsi kimi diplomla təltif edilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Vakant vəzifələrin tutulması üçün test imtahanlarına start verilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində vakant olan vəzifələrin tutulması üçün 6 noyabr 2018-ci il tarixdə elan edilmiş müsabiqənin test imtahanlarına 2019-cu il fevral ayının 25-dən start verilib.*

Müsabiqədə iştirak etmək üçün müraciətlər müsabiqə elan edildiyi gündən etibarən 30 gün ərzində komissiyanın internet portalı vasitəsilə elektron formada qəbul edilib.

Müsabiqəyə çıxarılan 38 vakant vəzifənin tutulması üçün 10 nəfər tərəfindən sənəd təqdim olunub.

Qeyd edək ki, muxtar respublikada ilk dəfə olaraq AMEA Naxçıvan Bölməsində işə qəbul mərkəzləşdirilmiş qaydada, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə həyata keçirilir.

İmtahan başlanmazdan əvvəl namizədlərə slayd vasitəsilə imtahan və test proqramından istifadə qaydaları haqqında məlumat verilib. İmtahanda namizədlərə ixtisas üzrə 50, informasiya texnologiyaları üzrə 20, dünyagörüşü üzrə 20, ingilis dili üzrə isə 10 sual olmaqla, ümumilikdə, 100 sual təqdim edilib. Sualları cavablandırmaq üçün namizədlərə 120 dəqiqə vaxt verilib. Obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılıb.

İmtahan bitdikdən dərhal sonra namizədlərə nəticəyə dair arayış təqdim edilib. Nəticələr komissiyanın rəsmi internet portalında (*www.dqmk.nmr.az*) yerləşdirilib.

Test imtahanları fevral ayının 27-dək davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Magistraturaya qəbul imtahanının I mərhələsi keçirilib



*Fevralın 24-də Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanının birinci mərhələsini keçirib.*

Magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsi respublikanın 5 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində, ümumilikdə, 39 imtahan binasında aparılıb. İmtahan bütün binalarda eyni vaxtda, saat $13^{00}$-da başlanıb və 2 saat 30 dəqiqə davam edib.

Bu ildən etibarən imtahanlarda bakalavrların xarici dil üzrə dinləyib-anlama bacarıqları da yoxlanılır. İmtahan dinləmə mətninin səsləndirilməsi ilə başlanıb. Bəzi imtahan binalarına giriş zamanı imtahan iştirakçılarının şəxsiyyətini dəqiqləşdirmək məqsədilə “Face Recognition” (üzün tanınması) texnologiyasına əsaslanan proqram-texniki vasitələrdən istifadə olunub. Bu texnologiyanın tətbiq edilməsində əsas məqsəd bakalavrların imtahan binasına buraxılış rejimini daha sürətli həyata keçirmək və qeydiyyatdan keçmiş bakalavrların əvəzinə başqa şəxslərin imtahan binasına daxil olmasının qarşısını almaqdır.

Məlumat üçün bildirək ki, imtahanda iştirak üçün 12 min 685 bakalavr ərizə təqdim edib. Onlardan 11 min 503 nəfəri Azərbaycan, 1182 nəfəri isə rus bölməsi üzrə imtahan verib. Ərizə verənlərin 5508-i oğlan, 7177-si isə qızdır. İmtahanın idarə olunmasına, ümumilikdə, 129 imtahan rəhbəri, 1251 nəzarətçi-müəllim cəlb olunub.

Naxçıvan şəhərində imtahan 14 nömrəli tam orta məktəbdə keçirilib. 27 imtahan zalında keçirilən imtahana 35 nəzarətçi və 3 imtahan rəhbəri cəlb edilib. İmtahanda 294 bakalavr iştirak edib. Bakalavrlara 50-si məntiqi təfəkkür, 25-i xarici dil, 25-i informatika olmaqla, ümumilikdə, 100 sual təqdim edilib.

Qeyd edək ki, hər bir doğru cavab 1 balla qiymətləndirilir, səhv cavab ümumi nəticəyə təsir göstərmir. İmtahanın nəticələri *www.dim.gov.az* saytında yerləşdiriləcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 29 mart 2019-cu il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5% həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 1216 kvadratmetr torpaq sahəsində yerləşən 2 mərtəbəli, 5 otaqlı, 116,0 kvadratmetr yaşayış, 19,25 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayonu, Qıvraq qəsəbəsi | 38 000 | 1 900 |
| 2. | 1952 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 4 otaqlı, 97,63 kvadratmetr yaşayış, 46,64 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Şərur rayonu, Zeyvə kəndi | 34 900 | 1 745 |
| 3. | 1521,40 kvadratmetr torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 39,6 kvadratmetr yaşayış, 6,0 kvadratmetr qeyri-yaşayış, 75,5 kvadratmetr köməkçi sahədən ibarət fərdi yaşayış evi | Culfa rayonu, Əbrəqunus kəndi | 30 000 | 1 500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faizi məbləğində beh Naxçıvan Muxtar Respublikası Mərkəzi Bankının İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 27 mart 2019-cu il tarixədək ödənilməlidir. Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlakın sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

- *Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
- *ödəniləcək behin qəbzi;*
- *hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
- *fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 29 mart 2019-cu il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcəkdir.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Paralimpiya Federasiyasının iclası olub



*Fevralın 25-də Naxçıvan Muxtar Respublika Stadionunda Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının iclası keçirilib.*

Yığıncağın gündəliyində Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının fəaliyyəti və görülən işlərin hesabatı, eləcə də federasiyanın yeni sədrinin seçilməsi olub.

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov açaraq bildirib ki, muxtar respublikada bütün sahələrdə olduğu kimi, idman sahəsində də mühüm işlər görülür. Yaradılan şəraitdən səmərəli istifadə edən gənclər bütün idman növlərinə maraq göstərirlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində bu sahənin maddi-texniki bazası möhkəmləndirilib.

Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının sədr müavini Vüqar Məmmədov vurğulayıb ki, muxtar respublikada fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası, sosial reabilitasiyası sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, onlar arasında idmanın kütləviliyinə nail olunmasına çalışılır. İdman sahəsinə göstərilən davamlı dövlət qayğısı nəticəsində muxtar respublikada paralimpiyaçıların sıraları daha da genişlənib və bu sahədə müxtəlif idman tədbirlərinin keçirilməsinə əlverişli şərait yaradılıb.

Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov çıxışında qeyd edib ki, muxtar respublikamızda idman və idmançılar hərtərəfli dövlət qayğısı ilə əhatə olunublar. İdmanın kütləviliyinə nail olmaq üçün nazirlik muxtar respublikanın bütün idman federasiyaları ilə birgə fəaliyyət göstərir və bu sahədə dövlət siyasətinin tənzimlənməsini həyata keçirir.

Qeyd edilib ki, 2018-ci il 10 dekabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində “Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr”lə bağlı keçirilən müşavirədə muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarına bir sıra tapşırıqlar verilib. Həmin tapşırıqlara əsasən Paralimpiya Federasiyasında sağlamlıq imkanları məhdud insanların idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması, federasiya tərəfindən istedadlı gənclərin məlumat bankının yaradılması və hər yarışdan sonra yenilənməsi təmin edilməlidir.

Sonra Azad Cabbarov çıxışında bildirib ki, muxtar respublikada müasir idman məktəbləri və idman qurğuları tikilib, ayrı-ayrı idman növləri üzrə 12 federasiya yaradılıb. Ali Məclis Sədrinin diqqəti nəticəsində 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının əsası qoyulub. Naxçıvanda sağlamlıq imkanları məhdud uşaq, yeniyetmə və gənclərin bu sahəyə cəlb edilməsi üçün maddi-texniki baza möhkəmləndirilib, bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərmanı ilə Nicat Babayev əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilib. Gənclər və idman naziri Nicat Babayevin Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının sədrliyinə namizədliyini irəli sürüb. Təklif yekdilliklə qəbul olunub və Nicat Babayev Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının sədri seçilib.

Yeni seçilən federasiya sədri çıxış edərək qeyd edib ki, muxtar respublika rəhbəri tərəfindən hər zaman sağlamlıq imkanları məhdud insanlara diqqət və qayğı göstərilir. Nicat Babayev Paralimpiya Federasiyasının bundan sonrakı fəaliyyətinin günün tələbləri səviyyəsində qurulacağını, sağlamlıq imkanları məhdud insanların idmana cəlbinə diqqətlə yanaşılacağını vurğulayıb. Sonda o, yaradılan şəraitə görə Ali Məclis Sədrinə minnətdarlığını bildirib.

Tədbirə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekun vurub, yığıncaq iştirakçıları adından Nicat Babayevi Paralimpiya Federasiyasının sədri seçilməsi münasibətilə təbrik edib.

**✍ Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 151